SON SƏHİFƏ
SƏS
№11
10 fevral
2026-cı il

# Azərbaycan və BƏƏ arası münasibətlər yeni strateji mərhələyə yüksəlib



*Vilayət İSMAYILOV,*
*iqtisad elmləri doktoru, professor*

***2** fevral 2026-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) işgüzar səfər edib. Azərbaycan Prezidentinin Əbu-Dabidə BƏƏ-nin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla baş tutan görüşü iki ölkə arasında formalaşmış strateji tərəfdaşlığın növbəti mərhələyə keçdiyinin göstəricisidir. Prezident İlham Əliyev ilə Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan arasında keçirilən görüş regional və qlobal proseslər fonunda xüsusi əhəmiyyət daşıyır. Cənubi Qafqaz, Yaxın Şərq və Avrasiya məkanında baş verən transformasiyalar fonunda Azərbaycan-BƏƏ xətti sabitlik və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq modeli kimi çıxış edir.*

Bir sözlə, münasibətlərin dərinləşməsində dövlət başçılarının qarşılıqlı səfərləri və dostluq münasibətləri özünəməxsus rol oynayır. Azərbaycan-BƏƏ münasibətlərinin bugünkü səviyyəyə gəlməsi uzunmüddətli, məqsədyönlü diplomatik fəaliyyətin nəticəsidir. Son illər ərzində tərəflər arasında siyasi dialoq, iqtisadi əməkdaşlıq və təhlükəsizlik sahəsində əlaqələr ardıcıl olaraq inkişaf etdirilmiş və yüksək səviyyəyə gətirilib.

Onu da deyək ki, Azərbaycan və BƏƏ prezidentlərinin iştirakı ilə ”Cənub Qaz Dəhlizi” QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG Şirkətinə satışı ilə bağlı alğı-satqı müqaviləsinə dair sənəd imzalanıb. Səfər çərçivəsində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Müdafiə Nazirliyi arasında müdafiə əməkdaşlığı razılaşması barədə niyyət məktubu da imzalanıb.

Səfərin əsas diqqətçəkən məqamlarından biri də Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında geniş tərkibdə keçirilmiş görüşdür. Görüşün neytral və eyni zamanda nüfuzlu məkanda baş tutması Azərbaycanın dialoq prosesinə və sülh quruculuğuna verdiyi önəmin göstəricisi olmaqla yanaşı, iqtisadi əlaqələrin genişləndirilməsi baxımından da xüsusi əhəmiyyət daşıyır. Tərəflər iqtisadi əməkdaşlığı genişləndirmək üçün mümkün imkanların araşdırılması barədə də razılığa gəldilər ki, bu da öz növbəsində sülhün qorunması vasitəsilə iqtisadi əməkdaşlıq üçün yeni qapılar açır.

İqtisadi əməkdaşlıq Azərbaycanın regional nəqliyyat qovşağı kimi mövqeyini gücləndirməklə yanaşı, eyni zamanda əlavə gəlir mənbələri yaradacaq. Əlavə olaraq, enerji məhsullarının ixracı post-münaqişə dövründə iqtisadi təsir aləti olaraq ön plana çıxır ki, bu həm də Azərbaycanın regional və beynəlxalq bazarlara çıxış strategiyasının tərkib hissəsi kimi qiymətləndirilə bilər. Bununla yanaşı, siyasi sabitliyin təmin olunması regionun investisiya cəlbediciliyi baxımından xüsusilə əhəmiyyətlidir və Azərbaycanın iqtisadi mərkəz mövqeyini daha da gücləndirir.

Bu səfərin diqqətçəkən məqamlarından biri də Şeyx Zayed Fondunun təsis etdiyi və qlobal miqyasda humanist dəyərlərin təşviqinə xidmət edən ”Zayed İnsan Qardaşlığı Mükafatı”nın 2026-cı il üzrə Azərbaycan Prezidentinə təqdim olunmasıdır. Mükafatın Qafqazda davam edən münaqişəyə son qoyulmasına, həmçinin dialoq və birgəyaşayış mədəniyyətinin təşviqi və inkişafına görə verilməsi Azərbaycanın bu məsələdəki potensial imkanlarını bir daha təsdiqləyir. Mükafat komitəsi Azərbaycan Prezidentinin regional sülhün təmin olunmasındakı rolunu vurğulamaqla yanaşı, onun qlobal sülhə töhfəsi istiqamətindəki nailiyyətini də təsdiqləyir. Mükafatın keçmiş laureatları arasında Roma Papasının, BMT-nin baş katibi kimi nüfuzlu şəxslərin olması Prezident İlham Əliyevin qlobal sülh və əməkdaşlığın əldə olunmasındakı nüfuzlu mövqeyini diqqətə çatdırır.

Ümumilikdə, Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri Azərbaycan-BƏƏ münasibətlərinin yeni, strateji mərhələyə yüksəlməsini simvolizə edir. Səfər siyasi, iqtisadi, enerji və təhlükəsizlik sahələrində qarşılıqlı əməkdaşlığın daha da dərinləşməsinə və ölkələrimiz arasında uzunmüddətli tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə güclü zəmin yaradıb.